***Uzun Almaniyaya qarşı (Uzun v. Germany),* ərizə № 35623/05**

02.09.2010-cu il tarixli qərar [V Bölmə]

Maddə 8

8-ci maddənin 1-ci bəndi

Şəxsi həyata hörmət hüququ

Məkanı müəyyənləşdirən qlobal sistem (*GPS*) qurğusu vasitəsilə terrorizmdə şübhəli bilinən şəxsin izlənməsi: *pozuntu baş verməyib*

Faktlar – 1995-ci ilin oktyabrında ərizəçi və digər şəxs (S.) istintaq aparan hakimin göstərişi ilə nəzarətə götürüldülər, onlar mənsub olduqları sol ekstremist qruplaşmalar tərəfindən təşkil edilmiş partlayışlarda iştirak etməkdə şübhəli bilinirdilər. Bu iki şəxs nəzarət altında olduqlarını anlayaraq S.-in avtomobilində quraşdırılmış ötürücüləri məhv etmək yolu ilə nəzarətdən yayınmağa cəhd etdilər və telefondan istifadə etməyi dayandırdılar. Bunu nəzərə alaraq, 1995-ci ilin dekabrında federal baş prokuror məkanı müəyyənləşdirən qlobal sistem (*GPS*) qurğusunun tətbiqi vasitəsilə nəzarətin həyata keçirilməsinə sanksiya verdi, dövlət orqanları həmin qurğunu S.-in avtomobilində quraşdırdılar. 1996-cı ilin fevralında ərizəçi və S. saxlanıldılar və daha sonra nəzarət vasitəsilə əldə edilmiş sübutlar əsasında, o cümlədən *GPS* qurğusunun məlumatları əsasında (həmin məlumatlara əsasən S.-in avtomobilinin olduğu yerlə partlayışlardan birinin törədildiyi yer bir-biri ilə əlaqəli idi) 1995-ci ilin yanvarından dekabrınadək törədilmiş müxtəlif partlayışlarda təqsirli bilindilər. Ərizəçi 13 il müddətinə azadlıqdan məhrum edildi. Onun Federal Ali Məhkəmə və Federal Konstitusiya Məhkəməsinə şikayətləri rədd edildi və sonuncu məhkəmə konkret olaraq qeyd etdi ki, cinayətlərin ağırlığı və ərizəçinin digər nəzarət tədbirlərindən yayınması faktı nəzərə alınarsa, onun şəxsi həyatının toxunulmazlığı hüququna müdaxilə mütənasib dərəcədə idi.

Hüquqi məsələlər – **Maddə 8:***GPS* qurğusu üçüncü şəxsə (S.-ə) məxsus avtomobildə quraşdırılsa da, şübhəsiz ki, ərizəçi barəsində də məlumatların əldə edilməsi məqsədini daşıyırdı, çünki dövlət orqanları əvvəlki araşdırma sayəsində bilirdilər ki, bu iki şəxs avtomobildən birgə istifadə edirlər. Buna görə də ərizəçi qurban statusuna malikdir. Bundan başqa, ərizəçinin işində *GPS* qurğusunun köməyi ilə aparılmış nəzarət üç aylıq müddət ərzində onların olduğu yerlər və yerdəyişmələri barədə məlumatların mütəmadi toplanılması və saxlanılması məqsədi ilə tətbiq edilmişdi. Öz növbəsində bu məlumatlar dövlət orqanlarına ərizəçinin hərəkət qrafikini tərtib etmək, əlavə araşdırma aparmaq və əlavə sübutları toplamaq imkanı vermişdi və onlar ərizəçinin məhkəmə araşdırmasında istifadə edilmişdi. Müvafiq olaraq, *GPS* qurğusu vasitəsilə nəzarət və bu yolla əldə edilmiş məlumatların emalı ərizəçinin şəxsi həyatına hörmət hüququna müdaxilə təşkil edib.

Müdaxilənin qanunla nəzərdə tutulan olub-olmaması məsələsinə gəlincə, nəzarətə əsas verən qanunvericilik norması mövcud idi[1] və həmin norma ərizəçi üçün əlçatan idi. Həmin normanın ərizəçinin öz hərəkətlərinin hansı nəticələr doğura biləcəyini öncədən görə bilməsinə imkan verən dərəcədə dəqiq olub-olmaması və sui-istifadə hallarına qarşı adekvat təminatların olub-olmaması barədə suallara telekommunikasiyalara nəzarət kontekstində tətbiq edilən daha ciddi

[1]Cinayət Prosessual Məcəlləsinin 100c § 1 № 1 (b) maddəsi.

standartlara istinadən cavab vermək olmazdı,[2] çünki ictimai yerlərdə yerdəyişmələrə *GPS* qurğusunun köməyi ilə nəzarət şəxsi həyata daha az müdaxilə təşkil edirdi.

Sözügedən normanın (həmin norma "xüsusilə ağır" cinayətlərlə əlaqədar olaraq fotoşəkillərdən, videoyazılardan və "digər xüsusi texniki vasitələrdən" istifadəyə icazə verirdi) *GPS* qurğusu vasitəsilə nəzarətə də şamil olunduğu barədə daxili məhkəmələrin rəyinə məhkəmə şərhi yolu ilə qanunvericilik müddəalarının əsaslı olaraq inkişaf etdirilməsi və aydınlaşdırılması kimi baxmaq olar. Avropa Məhkəməsi həmçinin hesab etdi ki, sui-istifadə hallarına qarşı adekvat və səmərəli təminatlar mövcud idi. O, bununla bağlı qeyd etdi ki, birincisi, *GPS* qurğusunun köməyi ilə nəzarət yalnız xüsusilə ağır cinayətlərlə əlaqədar olaraq və yalnız digər metodlar perspektivsiz və ya mürəkkəb olduğu təqdirdə tətbiq edilə bilərdi; ikincisi, nəzarətin müddətinin qanunla nəzərdə tutulmaması bu tədbirin mütənasibliyinin milli məhkəmələr tərəfindən yoxlanılması vasitəsilə kompensasiya olunurdu; üçüncüsü, müstəqil orqan tərəfindən nəzarətin həyata keçirilməsi üçün qanunvericilikdə ilkin məhkəmə sanksiyasının tələb olunması vacib deyildi, çünki cinayət işlərində bu cür nəzarətin qanuniliyinin sonradan yoxlanılması (və qanunsuz yolla əldə edilmiş sübutların qəbulunun istisna edilməsi) üzrə məhkəmələrin səlahiyyətləri sui-istifadə hallarından yetərli müdafiəni təmin edirdi; və nəhayət, milli məhkəmələr tərəfindən mütənasiblik prinsipinin tətbiqi müxtəlif orqanların koordinasiya olunmayan tədbirləri nəticəsində ərizəçinin tam nəzarət altına alınmasına qarşı yetərli müdafiəni təmin edirdi. Beləliklə, ərizəçinin şəxsi həyatına hörmət hüququna müdaxilə qanunla nəzərdə tutulmuş müdaxilə idi.

Bu müdaxilə milli təhlükəsizliyin, ictimai asayişin qorunması, qurbanların hüquqlarının müdafiəsi və cinayətlərin qarşısının alınmasından ibarət qanuni məqsədlər daşıyırdı. Həmçinin bu müdaxilə məqsədlərə doğru mütənasib idi: *GPS* qurğusunun köməyi ilə nəzarət yalnız daha az müdaxilə təşkil edən metodlar yetərli olmadıqda tətbiq edilmək üçün nəzərdə tutulmuş, nisbətən qısa müddət ərzində (təxminən üç ay) tətbiq edilmişdi və yalnız ərizəçinin cinayət ortağının avtomobilində hərəkət etdiyi zaman ona tətbiq edilirdi. Ərizəçinin tam və hərtərəfli nəzarətə məruz qaldığını söyləmək olmazdı. Araşdırmanın xüsusilə ağır cinayətlərlə əlaqədar olduğunu nəzərə alsaq, *GPS* qurğusunun köməyi ilə ərizəçiyə nəzarət edilməsi demokratik cəmiyyətdə zəruri idi. Gəldiyi bu nəticəni nəzərə alaraq, Məhkəmə hesab etdi ki, 6-cı maddənin 1-ci bəndi üzrə hər hansı ayrıca məsələ meydana çıxmır.

Nəticə: pozuntu baş verməyib (yekdilliklə).

---

[2]Misal üçün bax: *Veber və Saravia Almaniyaya qarşı*(*Weber and Saravia v. Germany*) (qərardad, ərizə №54934/00, 29 iyun 2006-cı il, 88 saylı Məlumat bülleteni);*Liberti və başqaları Birləşmiş Krallığa qarşı*(*Liberty and Others v. the United Kingdom*) (ərizə №58243/00, 1 iyul 2008-ci il, 110 saylı Məlumat bülleteni); və *Kennedi Birləşmiş Krallığa qarşı*(*Kennedy v. the United Kingdom*) (ərizə №26839/05, 18 may 2010-cu il, 130 saylı Məlumat bülleteni).